# Azərbaycan tarixinin tədrisi zamanı qabaqcıl iş təcrübəsində optimallaşdırmadan istifadə

**Zümrüd Lazım qızı Kazımlı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** zumrudkazimli1995@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. M.M. Əmirov,
p.ü.f.d., dos. D.M. Musayev

**Açar söz:** Azərbaycan tarixi, optimallaşdırma, ümumtəhsil məktəbləri, qabaqcıl təcrübə, metod, yollar, vasitələr

**Ключевые слова:** история Азербайджана, оптимизация, общеобразовательные школы, лучшие практики, методы, способы, инструменты

**Key words:** history of Azerbaijan, optimization, general education schools, advanced experience, method, roads, tools

"Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu yaradıcı şəxsiyyət və vətəndaşın formalaşdırılmasını tələb edir. Qanunda deyilir: təhsilin əsas məqsədi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrə və demokratiya prinsiplərinə, insan hüquqlarına və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil, yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdən ibarətdir (1. s, 64).

Bu əsas məqsədin həyata keçirilməsindən gözlənən nəticə nümunəvi Azərbaycan vətəndaşlarının yetişdirilməsidir. Son zamanlarda bütün sahələrdə olduğu kimi təhsilin sosial-mədəni əhəmiyyəti artmış və keyfiyyətli idarəetməsində yeni yanaşmaların axtarılması mühüm əhəmiyyət kəsb edir. Bu, müasir cəmiyyətdəki həyatın bütün sahələrində, eləcə də təhsil sahəsində baş verən sürətli dəyişikliklərlə birbaşa bağlıdır. Keyfiyyətin yaxşılaşdırılması yeni təhsil fəlsəfəsinin əsas ideyası olmuşdur, ona nail olmaq üçün vasitələrin effektivliyi və idarə edilməsi zərurəti xüsusilə güclənməyə başlamışdır. Bunun nəticəsi olaraq öyrənmə problemi yeni bir şəkildə həyata keçirilmiş və həyat boyu öyrənmə, eləcə də öyrənməni, öyrətmə kimi konsepsiyaları ortaya çıxmışdır.

Tarixin tədrisi metodikası elminin ən önəmli tədqiqat metodlarından biri də qabaqcıl təcrübənin öyrənilməsidir. Əgər hər hansısa yeniliyə dəqiq pedaqoji xarakteristika verilirsə və yeni bir şey kəşf edilirsə, bu zaman pedaqoji təcrübənin öyrədilib ümumiləşdirilməsi həqiqi elmi metod hesab olunur (2, s. 15).

Digər müəllif qabaqcıl təcrübəyə daha geniş önəm vermək yazır. Yenilikçi olmaq fərdi yaradıcılıqdır ki, həmin müəllimin işində gözəl nəticələr verir. Başqa müəllimlər onun kimi işləyə bilmirlər. Qabaqcıl təcrübə o vaxt yenilik novatorluq olur ki, müəllim hər hansı yeni bir ideya sürür. Bu ideya ona qədər deyilməmişdir. Məs: Makarenko, Suxomlinskinin ideyalarını qeyd etmək olar. Heç kim kollektivi Makarenko kimi təşkil edə bilmir, təsəvvür dərslərini Suxomlinski kimi keçə bilmir, pedaqoji nailiyyət axtarış, yaradıcılıq olmadan mümkün deyil (3, s. 41-60).

Müasir təlimdə istifadə olunan pedaqoji texnologiyalar, təlimin forma və üsulları heçdə hamısı yeni kəşf olunmamışdır. Lakin bu üsul və metodlar ona görə müasir təlimin əsas ünsürləri hesab olunur ki, səriştəli hər bir metodist tədris fəaliyyəti zamanı öz təxəyyülünü işə salır və köhnə metodlar zəminində yeni texnologiyalar yaradır. Kəşf olunmuş hər bir üsul, eləcə də tarix dərslərində İKT-dən istifadənin yeni metod və priyomları optimallaşmaya nü-

munə ola bilər.

Ümumtəhsil məktəblərində öyrənilən bütün fənlər kimi tarix fənninin məzmununun da yenilənməsi heç şübhəsiz respublikamızda uğurla aparılan təhsil islahatlarının nəticəsidir. Tədqiqatlarımızı həqiqi faktlarla əsaslandırmaq üçün respublikamızın şəhər və məktəblərində Azərbaycan tarixi dərslərində optimallaşdırmadan necə istifadə olunmasını müşahidə edərək ümumiləşdirmişik.

Azərbaycan tarixinin tədrisində optimallaşdırmadan səmərəli istifadədə qabaqcıl iş təcrübəsi mövzusunda apardığımız araşdırma zamanı İmişli rayonu Çaxırlı kənd müəllimәsi Xuraman Kazımova ilə müsahibəmiz baş tutdu. Müsahibə zamanı müəllimə təhsilimizdə 33 illik təcrübəsi zamanı gəldiyi qənaətdə professor Ə. Əlizadənin fikrinə dəstək çıxaraq qeyd etdi ki, məktəbə "Piqmalion" effektini tətbiq etmək lazımdır. Piqmalion-əfsanəvi heykəltəraşdır. O, yaratdığı qadın heykəlinə aşiq olmuşdur. Bu kökdə Piqmalion öz yaradıcılığına aşiq olmuş insan obrazı kimi rəmzi məna kəsb etmiş və tarixə düşmüşdür. Odur ki, müəllim də dərs dediyi, tərbiyə verdiyi uşağı sevməli və özünü ona sevdirməlidir". Müəllimə əlavələr edərək bildirdi ki, 2020-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasının ümumi təhsilin dövlət standartları" sənədində qeyd olunan və şagirdlərin yiyələnməli olduğu 12 əsas bacarıq heç şübhəsiz ki, hələ 2006-cı ildə Avropa Şurası tərəfindən təqdim olunmuş müasir kompetensiyalara uyğun müəyyən olunmuşdur. Hər bir müəllim də, təhsil alanlar da bu bacarıqları formalaşdırmağı qarşısına məqsəd olaraq qoymalıdır. Çünki, bu bacarıqların şagirdlərdə formalaşdırılması onların həyatda özlərinə yer tutmasına, metatəfəkkürün, metabacarıqların və metakoqnitiv biliklərin formalaşmasına xidmət edir. Xuraman müəllimənin fikirlərindən bəhrələnərək həmin kompetensiyaları və şagirdlərin yiyələnməli olduğu bacarıqları araşdırdıq və aşağıdakı kimi təsnif etdik:

***Müasir dövrdə insanların yiyələnməli olduqları kompetensiyaların siyahısı (2006-cı il Avropa Şurası tərəfindən təqdim olunmuşdur):***

- ✓ Ana dilində ünsiyyət kompetensiyası
- ✓ Xarici dildə ünsiyyət kompetensiyası
- ✓ Riyazi savad, elm və texnologiya kompetensiyası
- ✓ Kompyuterlərdən istifadə kompetensiyası
- ✓ Öyrənməyi öyrətmək kompetensiyası
- ✓ Sosial və vətəndaşlıq kompetensiyası
- ✓ Təşəbbüskarlıq və sahibkarlıq kompetensiyası
- ✓ Mədənimәlumatlılıq və özünü ifadə etmək kompetensiyası (4, s. 2-3).

***XXI əsr insanına lazım olan bacarıqlar:***

| ***1. Öyrənmə bacarıqları 4K (4C learning skills)*** | ***2. Savadlılıq bacarığı. (literacy skills)*** | ***3. Həyati bacarıqlar. (life skills)*** |
|---|---|---|
| *1.Kritik (Tənqidi təfəkkür)*<br>*2.Kreativ (Yaradıcı təfəkkür)*<br>*3.Kooperasiya (əməkdaşlıq)*<br>*4.Kommunikasiya (ünsiyyət)* | *1.İnformasiya savadlılığı*<br>*2.Media savadlılığı*<br>*3.Texnoloji savadlılıq* | *1. Çeviklik (təfəkkürdə, qərarların verilməsində).*<br>*2. Liderlik*<br>*3. Təşəbbüskarlıq*<br>*4.Produktivlik (məhsuldarlıq)*<br>*5.Sosiallıq* |

(5, s. 3).

Daha sonra Xuraman müəllimənin və məktəb rəhbərliyinin icazəsi ilə 01.04.20022 tarixində müəllimənin VI$^{A}$ sinfinə tədris etdiyi "Albaniya dövlətinin yaranması" mövzusundakı dərsində iştirak etdik. Dərsin gedişində apardığımız müşahidə zamanı dərsin 7 mərhələsinin də effektiv şəkildə təşkil olunduğunun şahidi olduq. Müəllimə motivasiyanı şəkil və xəritələrin köməyi ilə yaratdıqdan sonra, tədqiqat sualı lövhədə qeyd olundu. Təlim forması olaraq qruplarla iş seçilmiş və sinif 4 qrupa bölünmüşdür. Hər qrupa ayrı-ayrılıqda tapşırıqlar verilmişdir.

I qrup — "Albaniya dövlətinin yarandığı şəraiti təsvir edin".

II qrup — "Albaniyanın əhalisi və onların həyat tərzi" haqqında mətin qurmaq tapşırıldı.

III qrup — "Albaniya əhalisi arasındakı təbəqələşmə"ni təsvir edin.

IV qrup — "Albaniya dövlətinin idarəolunma formasını mətin əsasında təhlil edin.

Diqqət çəkən məqam ondan ibarət idi ki, müəllimə hər dört qrupa tapşırıq verdikdən sonra, qrup üzvlərindən kimin tapşırığı təqdim etməsini püşk atma yoluyla seçiləcəyini qeyd etdi. Bu metodun seçilməsində əsas məqsəd qrup üzvlərinin hər birinin aktiv olmasına nail olmaq idi.

Cavablar müəyyən olunmuş zaman çərçivəsində işləndi və təqdim olundu. Müzakirələrdən sonra, uyğun olaraq qiymətləndirmə aparıldı.

Ümumiləşdirmə mərhələsində isə Albaniyanın ərazisi, əhalisi onlar arasında bərabərsizlik, insanların təbəqələşməsi, hərbi iş haqqında məlumat, şagirdlər tərəfindən mənimsənildi və şagirdlərdə mövzu haqqında müstəqil fikirlərin formalaşdığı müşahidə olundu.

Yaradıcı tətbiqetmə mərhələsində isə şagirdlər "Albaniyada hərb işi" mövzusunda mətn tərtib etdilər.

Sonda müəllimə ev tapşırığı olaraq "Albaniyanın yaranması, idarə olunması, sosial iqtisadi münasibətlər" haqqında məlumat toplamağı və fikir mübadiləsinə hazırlaşmağı tapşırdı.

Azərbaycan tarixi dərslərində optimallaşdırmadan səmərəli istifadədə yollarını öyrəndiyimiz növbəti tarix müəllimi isə Bakıdakı H. Əliyev adına liseyin tarix müəllimi Hafiz Cabbarov oldu. Hafiz müəllim optimallaşdırmadan istifadə zamanı inteqrasiya məsələsinə diqqət çəkdi. Müəllimin fikirləri olduqca diqqətə layiq idi. Belə ki, o ənənəvi təhsildə də inteqrasiya prosesindən istifadə olunduğunu, lakin müasir təhsildə istifadə olunan inteqrasiyanın daha əhatəli və effektli olduğunu vurğuladı. Hafiz müəllimin təhlilinə görə "Əgər ənənəvi təhsildə inteqrasiya çox zaman biliklərin əlaqələndirilməsi formasında həyata keçirilirdisə, yəni müəllim dərsi izah edərkən bir fənnin mövzusunu, digər fəndə keçdikləri mövzu ilə əlaqələndirir, ondan sitatlar gətirir, yaxud şagirdlərə bu barədə biliklərini deməsini xahiş edirdisə, kurikulum islahatında inteqrasiya imkanları bir qədər fərqlidir. Məsələn, Azərbaycan tarixi fənn kurikulumunda inteqrativlik fənn daxili, (üfüqi inteqrasiya), fənlər arası əlaqələr (şaquli inteqrasiya) şəklində həyata keçirilir. Bu inteqrasiya pillələr üzrə məzmun xətləri, siniflər üzrə gözlənilən təlim nəticələri və məzmun standartları ilə (bilik və bacarıqlar sistemində) reallaşdırılır. Müəllimin seçdiyi standartın reallaşdırılmasında ona uyğun digər fənnin standartının reallaşdırılması nəzərdə tutulur. Bu zaman müəllim dərsin gedişində hansı inteqrasiya imkanlarını reallaşdıra biləcəksə, gündəlik planlaşdırma zamanı da onu qeyd etməlidir. Bu zaman müəllim inteqrasiya imkanını seçməkdə sərbəstdir və inteqrasiya edəcəyi digər fənlərin standartları ilə yaxından tanış olmalı, onlardan uyğun olanını seçməlidir. Şübhəsiz ki, seçilmiş inteqrasiya şagirdlərin yaşına müvafiq olmalıdır və keçilməyən mövzularla inteqrasiya yol verilməzdir".

Ümumilikdə inteqrasiya şagirdlərin təfəkküründə dünyanın vahid şəkildə dərk edilməsinə xidmət edir. Hər bir tarix müəllimi inteqrasiyadan səmərəli istifadə edərək, Azərbaycan tarixi fənninin təhsil alanlarda hərtərəfli dərkinə nail olmalıdır.

Daha sonra Hafiz Cabbarovun "Cənubi Azərbaycan müharibədən sonrakı dövrdə" mövzusundakı dərsinin iştirakçısı olduq. Bu mövzuda təlimin həm kollektiv, həm cütlərlə və qruplarla, həm də fərdi formasından istifadə etmək mümkün idi. Lakin Hafiz müəllim bu gün kollektiv işin daha səmərəli olacağını düşündüyünü qeyd etdi və üsul olaraq isə beyin həmləsi və fasiləli oxuya üstünlük verdi. Tədqiqat sualı "İranda 1960-1970-ci il islahatları nəticəsində baş verən dəyişiklikləri təhlil edin və İran islam inqilabı zamanı Təbriz üsyanını dəyərləndirin" - bu şəkildə elektron lövhədə öz əksini tapdı. Şagirdlər II Dünya müharibəsindən sonrakı Cənubi Azərbaycanın sosial-iqtisadi həyatında baş verən hadisələri, İran inqilabı zamanı Cənubi Azərbaycanın mövqeyini dəyərləndirdilər.

Dərs zamanı müəllim şagirdlərin təlimə cəlb olunması üsulundan çox məharətlə istifadə etdi. "Exotexnika" və "şagirdə zənciri" texnikasından istifadə edən Hafiz müəllimin dərsindən nümunə götürərək bu texnikaları araşdırdıq.

"Exotexnika" - "exo-əks-səda" sözündəndir və şagirdləri dərsə cəlb etmək üçün müasir təlimdə geniş istifadə olunur. Bir şagird sualı cavablandırdıqdan sonra, müəllim digər şagirdi qaldırır və yoldaşının fikrini təkrar etməsini və fikrə münasibət bildirməsini istəyir, bu üsul vasitəsi ilə şagirdlər dərs prosesi zamanı aktiv olur və şagirdlərin yoldaşlarını eləcə də müəllimi diqqətlə dinləməsinə səbəb olur.

"Şagirdə zənciri"- bir sual, tapşırıq və fəaliyyəti başlatmaq üçün müəllim birinci özü bir şagirdin adını çəkir. Daha sonra isə həmin şagird estafeti başqa şagirdə ötürmək üçün onun adını çəkir və beləcə zəncir şagirdlərin özü tərəfindən davam etdirilir. Bu üsul şagirdlərə onların öyrənmə prosesində təkcə iştirakçı deyil, həm də qurucuları olduğu hissini yaradır (6, s. 123-125).

Yaradıcı tətbiqetmə mərhələsində şagirdlər "Cənubi Azərbaycanın İran üçün əhəmiyyəti" mövzusunda esse yazdılar. Refleksiya və qiymətləndirmə mərhələsində isə təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə əlavə suallar verməklə şagirdlər fərdi şəkildə qiymətləndirildilər.

Sonda şagirdlərə ev tapşırığı olaraq "Müasir dövrdə Cənubi Azərbaycanda ana dilinin, milli dəyərlərimizin vəziyyəti" haqqında məlumat toplamaq tapşırıldı.

**Məqalənin aktuallığı.** Tədqiqat zamanı istər kənd məktəblərində, istərsə də şəhər məktəblərində yeni forma, üsul, texnologiyalardan səmərəli istifadə edilərsə, müsbət nəticələr alınmasının mümkün olduğunu müşahidə etdik. Əgər hər bir tarix müəllimi üzərinə düşən məsuliyyəti dərk etsə və vəzifəni layiqincə yerinə yetirsə, heç şübhəsiz ki, müasir Azərbaycan tarixi fənninin tədrisi zamanı optimallaşdırma üsullarından səmərəli istifadə olunması nəticəsində durmadan öz inkişafını davam etdirəcək.

**Məqalənin elmi yeniliyi.** Respublikanın ümumtəhsil məktəblərində Azərbaycan tarixi dərslərində optimallaşdırma üsullarından istifadə üzrə qabaqcıl məktəb təcrübəsi öyrənilmiş və ümumiləşdirilmişdir. Bu mənada qabaqcıl təcrübənin öyrənilib, təhlil edilməsi, ümumiləşdirilməsi yenilik kimi dəyərləndirilir.

**Məqaləni praktik əhəmiyyəti və tətbiqi.** Azərbaycan tarixi dərslərində optimallaşdırmadan istifadəyə dair yaradılmış qabaqcıl iş təcrübəsindəki metodik göstərişlər problemin praktik əhəmiyyətini əsaslandırır.

## Ədəbiyyat

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Bakı çap evi, 2012, 64 s.

2. Донилов М.А. Основные проблемы методологии и методики педагогических исследований. М.: Просвещение, 1969, с. 15.

3.http://ldhk.edu.az/eldhk/uploads/Pedaqoji%20usatal%C4%B1%C4%9F%C4%B1n%20%C9%99saslar%C4%B1%20%20(M%C3%BChazir%C9%99l%C9%99r%2041-60).pdf
4. Metodika və pedaqogika. Bakı: Təhsildə araşdırma və inkişaf mərkəzi, 2022, 231 s.
5. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları (maddə 7-8). Bakı, 2020, s. 10
6. İ. Həsənov, A. Rüstəmova, N. Babayeva. Metodika, pedaqogika, kurikulum. Bakı, 2020, s. 232

**З.Л. Казымлы**

## Использование оптимизации в передовом опыте работы по обучению истории Азербайджана

## Резюме

В статье, вдохновленной опытом эффективного использования оптимизации в преподавании истории Азербайджана, проясняется сущность передового опыта в области педагогических наук. Рассмотрены, изучены и обобщены роль и место ведущих учителей истории города Баку и Имишлинского района в оптимизации их опыта и деятельности. Оценена важность эффективного использования оптимизации в истории Азербайджана в образовательном процессе.

**Z.L. Kazimli**

## Use of optimization in advanced work experience in teaching the history of Azerbaijan

## Summary

The article, inspired by the experience of effective use of optimization in the teaching of Azerbaijani history, clarifies the essence of best practices in the field of pedagogical sciences. The role and place of the experience and activities of the leading history teachers of Baku and Imishli region in the optimization were observed, studied and generalized. The importance of effective use of optimization in the history of Azerbaijan was assessed in the educational process.

**Redaksiyaya daxil olub:** 01.07.2022